## Qanunvericilik

- **"İnsan alverinə qarşı mübarizə haqqında"** Azərbaycan Respublikasının Qanununa görə:
  - İnsan alverində iştirak edən şəxslər cinayət məsuliyyətinə cəlb edilirlər.
  - İnsan alveri ilə əlaqəsi olduğu ehtimal edilən əcnəbi və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisinə buraxılmır, onlara verilən giriş vizaları ləğv edilir.
- "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa görə turizm xidmətləri göstərən şəxslər turistlərin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görməlidirlər.
- Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən insan alveri cinayət məsuliyyətinə səbəb olur.
- **Turoperator və turagentlər turizm zərfinin və ya turizm xidmətinin turistlərə satışını yazılı müqavilə əsasında həyata keçirməlidirlər və bu müqavilənin şərtlərini pozmağa görə sığortaçı ilə mülki məsuliyyətin sığortası müqaviləsi bağlamalıdırlar.**




# UNUTMA:

Sənin təhlükəsizliyin dövlətin vəzifəsi, özünü qorumaq isə sənin məsuliyyətindir!

### ƏLAQƏ VƏ YARDIM

**152**

Qaynar xətt (24/7, pulsuz)

www.tourism.gov.az
www.insanalveri.gov.az

Azərbaycan Respublikasının olduğunuz ölkədəki səfirliyinə və ya konsulluğuna müraciət edin!

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

# İNSAN ALVERİNƏ QARŞI BİRLİKDƏ!

*Təhlükəsiz səyahət – güvənli gələcək*





# İnsan alveri nədir?

**İnsan alveri** - zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsidir. Uşağın istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi də insan alveri hesab edilir.

**İnsanların istismarı aşağıdakı formalarda həyata keçirilir:**

- Məcburi əmək
- Cinsi istismar
- Köləlik və köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti
- İnsan orqanlarının və toxumalarının qanunsuz götürülməsi
- Şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması
- Qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb edilməsi

**Yaşından, fiziki göstəricilərdən asılı olmayaraq hər kəs insan alverinin qurbanı ola bilər!**

---

# Təhlükə yaradacaq risklər nələrdir?

- Saxta şirkətlər və sosial şəbəkələr üzərindən verilən anonim elanlar;
- Səyahət məqsədinə uyğun olmayan viza ilə xaricə getmək;
- Sərhədin saxta sənədlərlə və ya qanunsuz yollarla keçilməsi;
- Yazılı müqavilə olmadan səfərə gedilməsi;
- Pasportun və digər sənədlərin yaxından tanımadığınız insanlara etibar edilməsi.

**Risklər:** saxta şirkət, təyinatsız viza, saxta sənədlər, pasportun saxlanılması, müqaviləsiz/şübhəli təkliflər – təhlükə yaradır.

# Özünüzü necə qoruya bilərsiniz?

- Yalnız rəsmi qaydada fəaliyyət göstərən şirkətlərlə işləyin.
- Yazılı müqavilə tələb edin.
- Pasportunuzu və sənədlərinizi heç kimə verməyin.
- Səfərin məqsədini tam bilin və aydınlaşdırın.
- Sosial şəbəkələrdə anonim elanlara etibar etməyin.
- Bilet, viza və hotel sifarişlərinin rəsmi portallardan edildiyinə əmin olun.

